# EKOLOJİ FAKTORLARIN AHIL YAŞLILARIN SAĞLAMLIQ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

**Natəvan Kərəmova, Çingiz Qasımov**

*AR ETN Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu, Bakı*
*phd_karamova@mail.ru*

Yaşadığımız dünyanın üzləşdiyi ən aktual problemlərdən biri ekoloji problemlərdir. Təbiətə vurduğu ziyana görə insan cəmiyyətinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Elmi-texniki inqilab nəticəsində XX əsrin ikinci yarısında ekoloji problemlər daha da kəskinləşmişdir. Son nəticədə isə insan həyatı təhlükədə qalaraq mürəkkəbləşən və sağalmayan xəstəliklərlə zənginləşərək insan ömrünün qısalmasına şərait yaratmışdır. Əsas ekoloji problemlərə ozon təbəqəsinin dəliklərin artması, qlobal istiləşmə, təmiz su ehtiyatı-

nın azalması, havanın çirklənməsi, istixana effekti, okeanların çirklənməsi və Yer kürəsində yaşayan növlərin müxtəlifliyinin azalması daxildir ki, insanların nəfəs alması və dəyərsiz qidalanmasına gətirib çıxarır. Bəzi hallarda insanlarda rast gəlinən xəstəlikləri radiasiya və ətraf mühitin digər çirkləndiricilərinin zərərli təsirləri ilə əlaqələndirirlər. Alimlərin apardıqları tədqiqatlara əsasən, insanların həyat tərzi onların sağlamlığına ən çox təsir edir (50%-ə qədər). Bu amilin komponentləri arasında qidalanmanın növü, zərərli vərdişlər, fiziki-hərəki fəaliyyət, nevroloji və psixoloji gərgin vəziyyətlər (stres, depressiya və s.) əsas yeri tutur. İnsan sağlamlığına təsir baxımından ikinci yerdə ekologiya (25%-ə qədər), üçüncü yerdə isə irsi xəstəliklər ( 20%-ə qədər) durur. Qalan 5% tibbi problemlərdən qaynaqlanır. Bəzən elə hallar olur ki, insan sağlamlığına təsir edən bu 4 amildən bir neçəsinin birdən-birə təsiri üst-üstə düşür. Ekologiyanın insan sağlamlığına təsir edən amil kimi təsir dərəcəsini qiymətləndirərkən ətraf mühitin çirklənməsinin miqyasını nəzərə almaq vacibdir: qlobal ətraf mühitin çirklənməsi bütün bəşər cəmiyyəti üçün fəlakətdir, lakin bir fərd üçün xüsusi təhlükə yaratmır; ətraf mühitin regional çirklənməsi regionun sakinləri üçün fəlakətdir, lakin əksər hallarda konkret bir şəxsin sağlamlığı üçün o qədər də təhlükəli deyil; ətraf mühitin yerli çirklənməsi - həm bütövlükdə konkret şəhər/rayon əhalisinin sağlamlığı, həm də bu ərazinin hər bir fərdi sakini üçün ciddi təhlükə yaradır. Beləliklə, insan sağlamlığı üçün son dərəcə vacibdir: hansı mərtəbədə yaşayır (birinci mərtəbədə radioaktiv radona məruz qalma ehtimalı yüksəkdir), onun evi hansı materialdan tikilmişdir (təbii və ya süni), hansı mətbəx sobasından istifadə edir (qaz və ya elektrik), onun mənzilində/evində döşəmənin nə ilə örtüldüyü (linoleum, xalça və ya daha az zərərli material); mebelin nədən hazırlandığı (SP- tərkibində fenollar var); evdə qapalı bitkilərin olub-olmaması və hansı miqdarda.

Çirklənmiş hava daha çox tənəffüs yollarını qıcıqlandırır, bronxit, amfizem və astmaya səbəb olur. Bu xəstəliklərə səbəb olan qıcıqlandırıcılara $SO_2$ və $SO_3$, azot buxarları, HCl, $HNO_3$, $H_2SO_4$, $H_2S$, fosfor və onun birləşmələri daxildir. İngiltərədə aparılan tədqiqatlar havanın çirklənməsi ilə bronxitdən ölüm arasında çox sıx əlaqə olduğunu göstərdi. Hava çirkləndiricilərinin insan orqanizmində əlamətləri və nəticələri daha çox ümumi sağlamlığın pisləşməsi ilə özünü göstərir: baş ağrısı, ürəkbulanma, zəiflik hissi, iş qabiliyyətinin azalması və ya itirilməsi. Belə nəticəyə gəlmək olar ki, ən çox çirkləndiricilər insan orqanizminə ağciyərlər vasitəsilə daxil olur. Buna görə: hava çoxlu sayda zərərli maddələrlə çirklənir, bəziləri bir-birinin zərərli təsirini gücləndirə bilər; tənəffüs yolları ilə orqanizmə daxil olan çirklənmə qaraciyər kimi qoruyucu biokimyəvi maneəni aşır - nəticədə onların zəhərli təsiri mədə-bağırsaq traktından keçən çirkləndiricilərin təsirindən 100 dəfə güclü olur; ağciyərlər vasitəsilə orqanizmə daxil olan zərərli maddələrin sorulması qida və su ilə daxil olan çirkləndiricilərdən xeyli yüksəkdir; atmosferi çirkləndirənlərdən gizlənmək çətindir: onlar ilin 365 günü, günün 24 saatı insan sağlamlığına təsir göstərir. Havanın çirklənməsi nəticəsində yaranan ölümün əsas səbəbləri xərçəng, anadangəlmə patologiyalar, insan orqanizminin immun sisteminin pozulmasıdır. Tərkibində yanma məhsulları olan havanın, məsələn, qısa müddətə belə nəfəs alması koronar ürək xəstəliyi riskini artırır.

Yuxarıda qeyd olunan halların praktiki təcrübələr ilə ekoloji çirklənmiş Sumqayıt şəhərində tədqiq edilmişdir. Belə ki, ahıl yaşlılar üzərində aparılmış tədqiqatlar zamanı ən çox ağciyər xəstəlikləri (bronxial astma, ağciyər xərçəngi, xroniki bronxit, allergik rinit və s.), ürək-damar xəstəlikləri (ÜİX, infarkt, damar patologiyaları və s.) və xərçəng xəstələrinin sayının çox olması müəyyən edilmişdir. Hər bir tədqiq olunandan toplanan sorğu anketlərinə əsasən, ən çox Sumqayıt fabrik və zavodlarında işləyib, müxtəlif əlillik dərəcələri ilə təqaüdə çıxanların sayı daha çoxdur. Qeyd etdiyimiz kimi, Sumqayıtda ən çox havanın ekoloji çirklənməsi qeyd edilmişdir və həmin ərazilərdə yaşayan/işləyən əhali həmin ekoloji çirklənmiş hava ilə tənəffüs etmək məcburiyyətində qalmışdır. Sumqayıtda yaşayan ahılların ümumi sağlamlıq göstəricilərinin çox aşağı səviyyəsi onlarda uzunömürlülük yaşına çatmasına bir maneədir. Hal-hazırda bu ərazidə ekoloji monitorinqlərin keçirilməsi, zavodlarda xüsusi hava təmizləyici qurğuların quraşdırılması və s. kimi tədbirlər görülməsinə baxmayaraq, hələ də müsbət nəticə əldə edilməyib. Əhalinin sağlamlıq göstəricilərinin normadan kəskin fərqlənərək aşağı düşməsi, uşaq ölümlərinin artması və uzunömürlülük indeksinin azalması bunu subut edən faktlardandır.